DOI: https://doi.org/10.36719/2706-6185/52/157-163

**Mədinə Qurbanova**
Azərbaycan Dövlət Pedaqoji Universiteti
https://orcid.org/0009-0007-3529-495X
medineq379@gmail.com

# Azad iradə və determinizm: Filosofların baxışları və müasir tətbiqlər

## Xülasə

Bu məqalədə azad iradə və determinizm anlayışları fəlsəfi perspektivdən təhlil olunur. Filosofların bu mövzuya verdikləri fərqli baxışlar, insan iradəsinin sərbəstliyi ilə kainatdakı səbəb-nəticə əlaqələrinin qarşılıqlı təsiri araşdırılır. Məqalədə klassik və müasir fəlsəfi nəzəriyyələr müqayisəli şəkildə təqdim olunur və azad iradənin etik, sosial və elmi sahələrdəki tətbiqləri müzakirə edilir. Məqsəd, oxuculara azadlıq və determinizm məsələlərinin mürəkkəbliyini başa düşməyə və gündəlik həyatda onların əhəmiyyətini qiymətləndirməyə kömək etməkdir.

***Açar sözlər:*** *azad iradə, determinizm, səbəb-nəticə, fəlsəfə, etik və sosial tətbiqlər*

**Medina Gurbanova**
Azerbaijan State Pedagogical University
https://orcid.org/0009-0007-3529-495X
medineq379@gmail.com

# Free Will and Determinism: Philosophers' Perspectives and Modern Applications

## Abstract

This article explores the concepts of free will and determinism from a philosophical perspective. It examines the different views philosophers have presented on the interplay between human freedom and causal relationships in the universe. Classical and modern philosophical theories are compared, and the practical implications of free will in ethical, social, and scientific contexts are discussed. The aim is to help readers understand the complexity of the issues of freedom and determinism and appreciate their relevance in everyday life.

***Keywords:*** *free will, determinism, causality, philosophy, ethics, social applications*

## Giriş

Azad iradə və determinizm məsələsi fəlsəfi düşüncənin ən qədim və ən fundamental mövzularından biri kimi tarix boyu diqqət mərkəzində olmuşdur. İnsan öz seçimlərində və davranışlarında nə dərəcədə azaddır? Onun qərarları təbii qanunların, ictimai şərtlərin və ya Tanrının iradəsinin nəticəsidirmi? Bu suallar əsrlərdir filosofların düşüncə dairəsində mühüm yer tutur.

Azad iradə ideyası insanın öz həyatını dərk olunmuş seçimlər əsasında formalaşdıra bilməsi, yəni daxili və xarici məcburiyyətlərdən nisbətən asılı olmadan qərar verməsi inancına əsaslanır. Determinizm isə tamamilə fərqli bir mövqe sərgiləyərək bildirir ki, insanın bütün hərəkətləri və düşüncələri əvvəlcədən mövcud olan səbəblərin qaçılmaz nəticəsidir. Bu baxışa görə, insanın azadlığı nisbi olub, hadisələr səbəb-nəticə zənciri ilə müəyyənləşdirilir.

**Tədqiqat**

Azad iradə və determinizm fəlsəfənin mərkəzi problemlərindən biridir. Determinizm, kainatda baş verən hər bir hadisənin əvvəlki səbəblərin nəticəsi olduğunu iddia edir. Bu fikir, insanın azad seçimlər edə bilməsi anlayışını sual altına alır. Məqalədə bu iki anlayışın qarşılıqlı əlaqəsi və müxtəlif fəlsəfi mövqelər araşdırılır.

Creative Commons Attribution-NonCommercial 4.0 International License (CC BY-NC 4.0)

**1. Determinizm və onun növləri**

Determinizm insan düşüncəsində və fəlsəfi düşüncədə əsrlər boyu müzakirə olunan əsas anlayışlardan biridir. Bu anlayışa görə, kainatda baş verən bütün hadisələr müəyyən səbəb-nəticə əlaqələri əsasında baş verir. Yəni, hər bir hadisə əvvəlcədən müəyyən səbəblərin nəticəsi olaraq meydana çıxır və təsadüfə yer yoxdur.

Determinizmin kökündə duran əsas fikir budur: əgər biz bütün təbiət qanunlarını və mövcud vəziyyəti dəqiq bilsək, gələcəkdə nə baş verəcəyini dəqiq proqnozlaşdıra bilərik. Bu baxışa görə, insanlar da daxil olmaqla, bütün varlıqlar təbiət qanunlarının təsiri altındadır və onların qərarları belə əvvəlcədən müəyyən olunmuş şərtlərə əsaslanır.

Determinizm müxtəlif sahələrdə fərqli şəkildə təhlil olunur:

• **Fiziki determinizm:** Təbiətdə baş verən hər bir hadisə fiziki qanunlarla izah olunur. Məsələn, bir cisim yerə düşürsə, bu, cazibə qanunu ilə bağlıdır.

• **Əxlaqi determinizm:** İnsan davranışları da müəyyən daxili və xarici amillər tərəfindən müəyyənləşdirilir. İnsanın iradəsi, tərbiyəsi, sosial mühit və genetik faktorlar onun qərarlarına təsir edir.

• **Riyazi və elmi determinizm:** Elmi yanaşmada hadisələrin səbəb-nəticə əlaqəsi üzərində qurulması, təbiətin qanunlara tabe olması əsas götürülür.

Ancaq bu fikirlərə qarşı çıxan fəlsəfi cərəyanlar da mövcuddur. İradə azadlığını müdafiə edənlər bildirirlər ki, insanın seçim etmək azadlığı var və o, yalnız səbəblərə tabe olan bir varlıq deyil. Bu baxışa görə, insanın düşüncə və qərarları tamamilə müəyyənləşdirilə bilməz.

Bəzi filosoflar, məsələn, *Spinoza* və *Laplace* kimi elm adamları determinizmi müdafiə etmişlər. *Laplace* belə düşünürdü ki, əgər kainatın bütün məlumatları məlum olsa, gələcək tam şəkildə hesablanıb əvvəlcədən deyilə bilər. Bu fikrə "Laplace'ın iblisi" nəzəriyyəsi deyilir (Laplace, 1902).

**Sərt determinizm:**

Sərt determinizm, hər bir hadisənin və insan davranışının əvvəlki səbəblərlə tamamilə müəyyənləşdirildiyini iddia edir. Bu mövqeyə görə, azad iradə illüziyadır və insanlar əməllərinə görə əxlaqi məsuliyyət daşımırlar. *Robert Sapolsky* bu mövqeyi müdafiə edərək, insan davranışlarının bioloji və ətraf mühit faktorları ilə müəyyənləşdirildiyini irəli sürür.

**Yumşaq determinizm (kompatibilizm):**

Yumşaq determinizm, azad iradə və determinizmin bir-biri ilə uyğun olduğunu iddia edir. *David Hume* bu mövqeyi müdafiə edərək, azadlığın insanın öz istəklərinə uyğun hərəkət etməsi olduğunu bildirir. *Daniel Dennett* də bu mövqeyi dəstəkləyərək, insanın davranışlarını müəyyənləşdirən səbəblərin mövcudluğunun azad iradəni inkar etmədiyini qeyd edir.

**Libertarianizm:**

Libertarianizm, azad iradənin mövcud olduğunu və determinizmlə uyğun olmadığını iddia edir. Bu mövqeyə görə, insanlar müəyyən seçimlərdə həqiqi alternativlərə malikdirlər və bu seçimlər əvvəlki səbəblərlə tamamilə müəyyənləşdirilməyib.

**2. Əxlaqi məsuliyyət və azad iradə**

Əxlaqi məsuliyyət anlayışı, insanların əməllərinə görə məsuliyyət daşıyıb-daşımadığını müəyyənləşdirir. Əgər determinizm doğru olarsa və insanlar əməllərini seçməkdə azaddırlarsa, bu zaman əxlaqi məsuliyyətin əsasları sual altına düşür. *Peter van Inwagen*-in "Nəticə arqumenti" bu məsələni araşdırır və determinizmin əxlaqi məsuliyyətlə uyğun olmadığını iddia edir.

Azad iradə insanın öz qərarlarını sərbəst şəkildə qəbul edə bilmə qabiliyyətidir. Bu anlayışa görə, insan müəyyən bir vəziyyətdə bir neçə alternativ arasında seçim edə bilər və bu seçimi özü – xarici və ya daxili məcburiyyət olmadan – verir. Azad iradəyə sahib olmaq insanın məsuliyyətli, mənəvi dəyərlərə uyğun davranış sərgiləyə bilməsi üçün əsas şərtdir.

Azad iradənin varlığına inanan filosoflar bildirirlər ki, əgər insanın qərarları tamamilə əvvəlcədən müəyyənləşmiş səbəblərlə bağlıdırsa (determinizm), o zaman o, bu qərarlara görə məsuliyyət daşıya bilməz. Yəni, əgər biz seçim edə bilmədən sadəcə "rol oynayırıqsa", bizə aid olan heç nə yoxdur. Bu səbəbdən azad iradə anlayışı həm hüquq, həm din, həm də əxlaq sahəsində böyük əhəmiyyət kəsb edir.

Əxlaqi məsuliyyət insanın etdiyi hərəkət və seçimlərə görə cavabdeh olması deməkdir. Başqa sözlə, insan bir qərar verdikdə və ya hərəkət etdikdə, onun nəticələrini dərk edir və bunun üçün cavab verir. Əgər insan azad iradə ilə seçimsizdirsə və o seçimlərin nəticəsini də qəbul edirsə, o zaman əxlaqi məsuliyyət daşıyır.

Əxlaqi məsuliyyətin əsas şərti odur ki, insanın hərəkətləri könüllü olsun. Məsələn, bir insan zorla və ya tam şüursuz halda pis bir əməl edirsə, bu zaman onu əxlaqi baxımdan günahlandırmaq çətin olur. Lakin insan öz iradəsi ilə doğru və ya yanlış qərar verirsə, o zaman məsuliyyət daşıyır.

Bu iki anlayış çox sıx bağlıdır. Əgər azad iradə yoxdursa, əxlaqi məsuliyyətin də mənası qalmır. Çünki məsuliyyətli olmaq üçün əvvəlcə azad şəkildə qərar vermək lazımdır. Filosoflar arasında bu mövzu ilə bağlı fərqli fikirlər olsa da, bir çoxları hesab edir ki, əxlaqi dəyərlərin varlığı və insanın yaxşı-pisi ayırd edə bilməsi üçün azad iradə mütləqdir.

Bəzi filosoflar kompatibilizm adlanan fikri müdafiə edirlər. Bu fikrə görə, azad iradə və determinizm bir yerdə mövcud ola bilər. Yəni insanın hərəkətləri müəyyən səbəblərlə bağlı olsa belə, əgər o, xarici məcburiyyət olmadan öz istəyi ilə qərar veribsə, bu zaman onu azad saymaq olar və məsuliyyət daşıyır.

Azad iradə və determinizm problemi fəlsəfə tarixində ən qədim dövrlərdən müzakirə mövzusu olmuşdur. İnsan davranışlarının səbəbləri, onun seçim azadlığı, taleyin rolu və əxlaqi məsuliyyət məsələsi müxtəlif filosoflar tərəfindən müxtəlif cür izah edilmişdir. Qədim Yunan fəlsəfəsi bu məsələyə xüsusi diqqət ayırmış və müxtəlif yanaşmalar formalaşdırmışdır. Bu məqalədə Sokrat, Platon, Aristotel, Stoa filosofları və Epikürün azad iradə və determinizm haqqında baxışları araşdırılacaqdır.

Sokrat insan davranışlarının əsasında biliyin dayandığını vurğulayırdı. Onun fikrincə, insan yalnız doğru biliyə malik olmadıqda səhv qərarlar verir. Beləliklə, azad iradə biliklə şərtlənir və insanın seçim azadlığı biliyin səviyyəsindən asılı olur (Copleston, 1993).

Platon insan ruhunu üç hissəyə – idrak, iradə və istəklərə ayırırdı (Plato, 2000). O, azadlığın yalnız ağılın ehtiraslar üzərində hökmranlığı ilə mümkün ola biləcəyini qeyd edirdi. Bu baxış azad iradəni ruhun daxili nizamı ilə məhdudlaşdırır (Copleston, 1993, p. 1).

Aristotel isə insan davranışını həm zərurət, həm də seçim imkanı ilə əlaqələndirirdi. O, bəzi hallarda insanın xarici səbəblərdən asılı olduğunu qəbul etsə də, əksər əməllərində azad seçim edə bildiyini vurğulayırdı. Ona görə də azad iradə əxlaqi məsuliyyətin əsas şərtidir (Aristotle, 1999, p. 39).

Stoa məktəbi (Zenon, Epiktet, Seneka, Mark Avreli) kainatda baş verənlərin hamısının ilahi qanun – *logos* əsasında müəyyənləşdiyini qəbul edirdi. Bu baxımdan insanın taleyi dəyişməzdir. Lakin stoiklər hesab edirdilər ki, insanın daxili münasibəti və hadisələrə yanaşması onun ixtiyarındadır. Epiktetin məşhur ifadəsinə görə, "bizim ixtiyarımızda yalnız düşüncələrimiz və iradəmizdir" (Epicurus, 1994, p. 28).

Epikür stoiklərdən fərqli olaraq tam determinizmi qəbul etmirdi. O, atomların hərəkətindəki "səpginlik" (*clinamen*) nəzəriyyəsini irəli sürərək, bu təsadüfilik sayəsində insanın azad seçim imkanı qazandığını əsaslandırırdı. Bu baxış onu qədim dövrün ən güclü azad iradə tərəfdarlarından birinə çevirdi (Epicurus, 1994, p. 31).

Epiktetusun fikrincə, insanın azadlığı onun iradəsindədir — yəni o, baş verən hadisələri deyil, onlara münasibətini idarə edə bilər. Onun məşhur fikri budur: "İnsanın ixtiyarında olanlar — düşüncələr, istəklər, məqsədlər və əxlaqi seçimlərdir; ixtiyarında olmayanlar isə bədən, sərvət, şöhrət və taleyin hadisələridir" (Epictetus, 1983). Epiktetusun əsas ideyası budur ki, insan yalnız daxili iradəsinə nəzarət edə bilər, xarici hadisələr isə onun gücü xaricindədir. Buna görə də azad iradə insanın öz zehni və mənəvi dünyasında baş verir.

Qədim Yunan filosofları azad iradə və determinizm mövzusunu müxtəlif cür şərh etmişlər. Sokrat və Platon azadlığı bilik və ağlın hökmranlığı ilə əlaqələndirirdilər. Aristotel həm zərurəti, həm də seçimi qəbul edirdi. Stoiklər determinist mövqe tutaraq yalnız daxili azadlığa yer verirdilər. Epikür isə determinizmi rədd edərək azad iradəni fəlsəfi əsaslarla müdafiə etmişdir. Bu müxtəlif baxışlar

sonrakı dövrlərdə azad iradə problematikasının fəlsəfə tarixində geniş müzakirə olunmasına zəmin yaratmışdır.

Azad iradə və determinizm məsələsi təkcə Qədim Yunan fəlsəfəsinin deyil, həm də **Şərq fəlsəfi məktəblərinin** əsas müzakirə mövzularından biri olmuşdur. Şərqdə bu problem dini-fəlsəfi təlimlərin, əxlaqi prinsiplərin və kosmoloji baxışların mərkəzində dayanmışdır. **Zərdüştilikdən** başlayaraq Hind, Budda və İslam fəlsəfi ənənələrində insanın seçim azadlığı, taleyin rolu və ilahi iradə ilə insan iradəsinin münasibəti müxtəlif şəkildə şərh olunmuşdur. Bu məqalədə Şərq filosoflarının mövzuya yanaşmaları araşdırılacaqdır.

**Zərdüşt təliminə** görə, kainatda iki əsas qüvvə vardır: xeyir (*Aşa*) və şər (*Druj*). İnsan bu iki yol arasında seçim etmək azadlığına sahibdir. Lakin seçimin nəticəsinə görə məsuliyyət daşıyır. Bu baxış həm azad iradəni, həm də taleyin müəyyənləşdirici rolunu qəbul edir (Zaehner, 1961, pp. 41–56).

**Hind fəlsəfəsində** insan həyatı *karma* qanunu ilə müəyyənləşir. Yəni hər bir əməlin nəticəsi növbəti həyat dövrünə təsir göstərir. Bu determinist yanaşmadır. Ancaq insan öz *dharmasını* — yəni mənəvi və əxlaqi vəzifəsini icra etməklə gələcək həyatını dəyişə bilər. Beləliklə, hind fəlsəfəsi azad iradə və determinizmi sintez etmişdir (Radhakrishnan, 1927, p. 1).

**Buddizmdə** hər bir hadisə səbəb–nəticə qanunu (*pratitya-samutpada*) ilə izah edilir. Bu, determinist təsir bağlarını ifadə edir. Lakin insan şüurunu və davranışlarını dəyişməklə öz gələcək taleyini formalaşdıra bilir. Yəni buddizmdə məhdud azad iradə qəbul edilir (Rahula, 1974, p. 50).

**İslam düşüncəsində** "qədər və iradə" məsələsi əsas teoloji-fəlsəfi mübahisələrdən biri olmuşdur:

• **Cəbrilər** insanın heç bir seçim haqqının olmadığını, hər şeyin Allahın iradəsi ilə baş verdiyini müdafiə edirdilər.

• **Qədəriyyə** və **Mötəzilə** insanın azad iradəsini vurğulayaraq, onun öz əməllərinə görə məsuliyyət daşıdığını iddia edirdilər.

• **Əşarilər** isə "kəsb" nəzəriyyəsi ilə orta mövqe tutaraq, insanın seçim etdiyini, lakin əməlin reallaşmasının Allahın iradəsindən asılı olduğunu qeyd etmişlər (Watt, 1948, pp. 12–32).

**Fərabi** insanın xoşbəxtliyini yalnız şüurlu seçimlə əldə edə biləcəyini söyləmişdir. Onun fikrincə, kainatın nizamı determinizmə əsaslansa da, insan ağıl və idrak vasitəsilə azad seçim etmək gücünə malikdir (Frank, 1992, pp. 315–341).

**İbn Sina** insanın iradəsini qəbul edir, lakin bunu ilahi zərurət anlayışı ilə uzlaşdırırdı. Allah bütün varlığın səbəbi olsa da, insan əməllərində seçim etmək gücünə sahibdir. Bu, həm determinizmi, həm də azad iradəni birləşdirən yanaşmadır (Nasr, 2007, p. 214).

**Qəzali** isə Əşari mövqeyini gücləndirərək, insanın iradəsini qəbul etsə də, bütün hadisələrin nəticəsini Allahın iradəsinə bağlamışdır. Onun "kəsb nəzəriyyəsi" azad iradə ilə ilahi qüdrət arasında sintez yaratmaq cəhdi idi.

Şərq fəlsəfəsində azad iradə və determinizm mövzusu müxtəlif cür izah edilmişdir. Zərdüştilikdə insanın azad seçimi vurğulanırdı. Hind və buddist ənənələrində *karma* və səbəb–nəticə qanunu determinizmi ifadə etsə də, insanın gələcək seçim imkanları da nəzərə alınırdı. İslam fəlsəfəsində isə bu məsələ geniş mübahisələr doğurmuş, müxtəlif məktəblər fərqli yanaşmalar irəli sürmüşdür. Fərabi və İbn Sina insanın idrak və ağıl vasitəsilə azad seçim edə biləcəyini əsaslandırmış, Qəzali isə bu azadlığı ilahi iradə ilə uzlaşdırmağa çalışmışdır. Beləliklə, Şərq fəlsəfəsi azad iradə və determinizm məsələsinə həm dini, həm də əxlaqi-fəlsəfi müstəvidə zəngin baxışlar bəxş etmişdir.

Qədim yunan fəlsəfəsində Heraklitin "hər şey zərurət qanunlarına tabedir" fikrindən tutmuş, Stoa məktəbinin kosmik determinizmi və Aristotelin məsuliyyət konsepsiyası bu müzakirələrin əsasını qoymuşdur. Orta əsrlərdə İslam filosofları, xüsusilə Qəzali və İbn Sina, insan iradəsinin Tanrı iradəsi ilə münasibətini araşdıraraq bu mübahisəyə yeni yanaşmalar gətirmişlər. Yeni dövr filosofları – Hobbes, Spinoza və Kant – azadlıq və determinizm problemini həm əxlaq, həm də bilik nəzəriyyəsi kontekstində yenidən gündəmə gətirmişdir (Fakhry, 2002).

Müasir dövrdə isə bu məsələ yalnız fəlsəfə ilə məhdudlaşmır. Psixologiya, neyroelm və hüquq elmləri də insanın seçim azadlığı məsələsinə maraq göstərməkdədir. Çünki insanın azad olub-olmaması etik məsuliyyət, hüquqi cəza və mükafat, eləcə də sosial ədalət prinsiplərinin təməlini təşkil edir.

Beləliklə, azad iradə və determinizm haqqında fəlsəfi müzakirələr təkcə nəzəri deyil, həm də praktik əhəmiyyət daşıyır. Bu mövzunun araşdırılması insanın mahiyyətini, mənəvi məsuliyyətini və cəmiyyət qarşısında mövqeyini dərk etmək üçün mühüm açar rolunu oynayır. Azad iradə və determinizm mövzusunun artıq tükəndiyini, burada yeni arqumentlərin mümkün olmadığını iddia edən yanaşmalar olsa da, bu fikir kökündən yanlışdır. Əksinə, mövzu hələ də fəlsəfi müzakirələrdə aktual olaraq qalır və yeni baxış bucaqlarının formalaşmasına imkan yaradır. Müasir dövrdə Renouvier, Fouillée və Delbœuf kimi filosofların, eləcə də Green, Bradley, Hinton və Hodgson kimi mütəfəkkirlərin əsərləri bu mübahisəni tamamilə yeni işıqda təqdim etmişdir (James, 1884, p. 145).

**William James bu barədə yazırdı:**

*"Mən Azad iradənin həqiqətini sübut etmək iddiasında deyiləm. Mənim ən böyük ümidim odur ki, bəziləriniz mənim kimi onu doğru hesab edərək, sanki həqiqətmiş kimi yaşamağı seçsin. Əgər biz həqiqətən azadıqsa, ilk azad hərəkətimiz öz azadlığımızı təsdiq etməkdən ibarət olmalıdır." (James, 1884, p. 147).*

Məsələni daha aydın izah etmək üçün iki mühüm fərziyyəni qəbul etmək vacibdir. Birincisi, biz dünyanın mahiyyəti haqqında nəzəriyyələr qurarkən və onları müzakirə edərkən məqsədimiz əşyaları elə bir şəkildə anlamaqdır ki, bu, bizə subyektiv məmnunluq bəxş etsin. İkincisi isə, əgər iki fərqli konsepsiya varsa və onlardan biri bizə digərinə nisbətən daha rasional görünürsə, onda daha rasional olanı daha doğru hesab etməyə haqlıyıq. Əgər bu fərziyyələr qəbul olunmursa, məsələnin müzakirəsi də mənasız olacaqdır. Əslində, riyaziyyat və təbiət elmlərində əldə olunan böyük nailiyyətlər – təkamül nəzəriyyəsi, qanunların vahidliyi prinsipi və sair – insanın dünyanı zehnində daha rasional formaya salmaq istəyindən irəli gəlmişdir. Təcrübənin xam axarından yaranan təsəvvürlər çox zaman pərakəndədir, lakin insan ağlı bu xaosu rasional bir sistem halına gətirmək meyli ilə hərəkət edir. Dünya bu rasional tələbimizə müəyyən qədər cavab verir və nə qədər cavab verəcəyini isə yalnız yeni cəhdlərlə öyrənmək olar. Bu səbəbdən, biz mexaniki və məntiqi rasionallıqla yanaşı, əxlaqi rasionallıq barədə də düşünməkdə azadıq. Əgər dünyanın mahiyyətini izah edən hər hansı bir nəzəriyyə mənim əxlaqi tələblərimlə ziddiyyət təşkil edirsə, mən onu rədd etməkdə və ya ən azı şübhə altına almaqda özümü azad hiss edirəm. Bu, səbəblilik prinsipi üçün də keçərlidir; o, əslində hadisələr arasında daha dərin əlaqənin mövcud olacağına dair insanın subyektiv tələbini ifadə edən bir fərziyyədən başqa bir şey deyil.

Deməli, bütün elmi və fəlsəfi ideallarımız – qanunların vahidliyi prinsipi də, azad iradə ideyası da – əslində "naməlum tanrılara həsr edilmiş qurbangahlar" kimidir. Əgər bunu qəbul etsək, mübahisəni bərabər şərtlərlə davam etdirə bilərik. Lakin əgər kimsə iddia edirsə ki, azadlıq və müxtəliflik yalnız subyektiv tələblərdir, halbuki zərurət və qanunauyğunluq obyektiv həqiqətdir, onda müzakirəni davam etdirmək mümkün olmur (James, 1884, p. 152). Azad iradə və determinizm mövzusunda Schopenhauer xüsusi bir mövqe tutur. Onun fikrincə, bu məsələ insan ağlının ən mürəkkəb problemlərindən biridir və uzun əsrlərdir fəlsəfə tarixində müzakirə edilsə də, yekdil cavab tapılmamışdır. Schopenhauerə görə, insan davranışları zahirdə azad görünə bilər, lakin dərinlikdə onlar iradənin və xarakterin daxili qanunauyğunluqları ilə müəyyən olunur. Bu baxımdan o, iradəni "azad" yox, daha çox "zəruri" və "qaçılmaz" bir güc kimi izah edir. Bu yanaşma, müəyyən mənada Jamesin fikirləri ilə dialoqa girir. James azad iradəni psixoloji təcrübə və insanın subyektiv seçim hissi ilə izah etməyə çalışırdı. Schopenhauer isə bunun əksinə olaraq, azadlıq duyğusunu bir illüziya kimi qiymətləndirirdi. Bununla belə, hər iki düşünür insanın daxili təcrübəsini əsas götürərək iradənin fəlsəfi təhlilini aparmışdır. James üçün azadlıq insanın yaşantılarında hiss edilən bir reallıq idisə, Schopenhauer üçün bu, əksinə, dərin fəlsəfi zərurətin pərdələnmiş forması idi.

Schopenhauer azad iradə problemini insan ağlının ən mürəkkəb məsələlərindən biri hesab edirdi. Onun fikrincə, insan davranışları zahirdə azad görünə bilər, lakin əslində onlar daxili zərurət və xarakterin qanunauyğunluqları ilə müəyyən olunur (Schopenhauer, 1969):

"**İnsan istədiyini edə bilər, amma istədiyini istəyə bilməz.**" (Schopenhauer, 1969).

Siyasi fəlsəfə tarixində azadlıq anlayışı daim müzakirə mövzusu olmuşdur. Müxtəlif dövrlərdə filosoflar azadlığı fərqli cür izah etmiş, bəziləri onu insanın daxili iradəsi ilə, digərləri isə xarici maneələrin yoxluğu ilə bağlamışdır. İndi isə XVII əsr ingilis filosofu Tomas Hobbesun bu mövzudakı

fikirlərinə nəzər salaq. Hobbes azadlığı xarici maneələrin yoxluğu kimi izah edir. Onun fikrincə, insanın azadlığı gücü və ağlı çatan hərəkətləri etməsinə maneə olmaması ilə bağlıdır. Azadlıq "iradə" və ya "arzu" ilə deyil, insanın qarşısında dayanan fiziki və sosial maneələrin olmaması ilə müəyyən olunur. O, həmçinin göstərir ki, qorxu ilə azadlıq bir-birinə zidd deyil — çünki insan qorxu altında da olsa, hərəkəti öz seçimi ilə yerinə yetirir. Azadlıq, yaxud sərbəstlik, əsasən hərəkətin qarşısını alan xarici maneələrin olmaması deməkdir. Bu anlayış yalnız insanlar üçün deyil, cansız varlıqlar üçün də keçərlidir. Məsələn, suyu divarlar və ya qab saxlayırsa, o, daha geniş sahəyə yayıla bilmir və bu halda azad deyil. Ancaq hərəkət etməməyin səbəbi əşyaların öz təbiətindədirsə, bu, azadlığın yoxluğu deyil, gücsüzlükdür — məsələn, daşın hərəkətsiz qalması və ya xəstəliyə görə insanın yataqda qalması kimi.

Azad insan isə o şəxsdir ki, gücü və ağlı çatan işləri görməkdə iradəsinə qarşı heç bir maneə ilə üzləşmir. Hobbes bildirir ki, azadlıq "istək və arzu" ilə deyil, insanın qarşısında xarici maneələrin olmaması ilə ölçülür. Buna görə də "azad iradə" ifadəsi əslində azadlıq deyil, insanın qarşısına çıxan maneəsiz hərəkətidir. Hobbes həmçinin vurğulayır ki, qorxu ilə azadlıq bir-birinə zidd deyil. İnsan qorxudan müəyyən hərəkət edə bilər (məsələn, gəmi batmasın deyə yükünü dənizə atmaq), lakin bunu yenə də öz iradəsi ilə etdiyindən bu, azadlıq çərçivəsindədir. Hobbes bildirir ki, qorxu və azadlıq bir-birinə zidd deyil. Məsələn, insan mallarını dənizə atanda, bunu qorxudan etsə də, hərəkəti yenə də öz iradəsi ilə yerinə yetirmiş olur. O, həmçinin göstərir ki, ümumiyyətlə dövlətlərdə insanların qanun qorxusu ilə etdikləri işlər də azad iradənin nəticəsi hesab olunur, çünki onları etməkdən imtina etmək imkanları vardır. Filosof qeyd edir ki, azadlıq və zərurət (qaçılmazlıq) uyğunlaşır. İnsanların etdikləri hər bir hərəkət azad iradədən doğur, lakin hər bir arzu və meyl də müəyyən səbəbdən, başqa bir səbəbin nəticəsi olaraq meydana gəlir. Bu səbəblər zənciri Tanrıya — bütün səbəblərin ilk səbəbinə qədər gedib çıxır. Deməli, insanın iradəsi azad olsa da, o, Tanrının qoyduğu zərurətlər çərçivəsində hərəkət edir. Buradan çıxış edərək Hobbes deyir ki, insanın azadlığı ilə zərurət bir-birini inkar etmir. Bununla yanaşı, insanlar sülh və təhlükəsizlik naminə özləri üçün süni bir qurum yaratmışlar — bu, "dövlət" və ya "ümumi iradə"dir. Dövlətin mövcudluğu və qanunlar əslində "süni zəncirlərdir", yəni insanların bir-birinə qarşılıqlı razılaşması ilə qoyulan məhdudiyyətlərdir. Hərçənd bu zəncirlər zəifdir, amma qorxu səbəbilə möhkəm şəkildə saxlanılır.

Nəticədə Hobbes vurğulayır ki, vətəndaşların azadlığı yalnız qanunlar çərçivəsində mövcuddur. Çünki heç bir dövlət bütün insan hərəkətlərini tam tənzimləyə bilməz. Bu səbəbdən də, insanlar yalnız öz ağıl və səbəblərinə əsaslanaraq, onlar üçün ən faydalı olan hərəkətləri seçməkdə azaddırlar. Müasir fəlsəfədə azad iradə və determinizm problemi hələ də ən aktual mövzulardan biri olaraq qalır. Qədim və Orta əsr filosoflarının bu məsələyə yanaşmaları əsasən metafizik və dini çərçivədə izah edilirdisə, müasir dövrdə bu problem daha çox elmi, psixoloji və etik müstəvilərdə araşdırılır. Spinoza *Ethics* əsərində kainatı vahid substansiya (*Tanrı və ya Təbiət – Deus sive Natura*) kimi izah edir. Onun fikrincə, bu substansiya sonsuz sayda atributlara malikdir və bütün mövcudluqlar — insanlar, düşüncələr, hadisələr — bu substansiyanın zəruri təzahürləridir (Spinoza, 1994). Bu baxışa əsasən, hər bir hadisə və hər bir düşüncə səbəb-nəticə zənciri ilə müəyyən olunur. Heç bir hadisə, o cümlədən insanın qərarları da bu zəncirdən kənarda baş verə bilməz. Yəni insan iradəsi təbiət qanunlarından kənar azad güc deyil, əksinə, həmin qanunların bir hissəsidir. Müasir neyroelm və psixologiya göstərir ki, insanın qərarvermə prosesi beyindəki neyron fəaliyyətlə sıx bağlıdır. Ben-jamin Libet və digər neyrobioloqların apardıqları eksperimentlərdə məlum olmuşdur ki, insanın hərəkət etmə qərarı şüurunda formalaşmadan bir neçə millisaniyə əvvəl beynində neyron impulsları yaranır. Bu isə bir çox alimləri azad iradənin illüziya olması barədə düşünməyə vadar etmişdir (Libet, 2004, p. 125).

Robert M. Sapolsky insan davranışını izah edərkən neyroelmi determinizm mövqeyindən çıxış edir. O, bildirir ki, insanın qərarları və davranışları tamamilə bioloji, genetik, hormonal və neyroloji proseslərin nəticəsidir. Bu baxımdan, insanın "azad iradə" adlandırdığı anlayış əslində illüziyadır. Sapolsky yazır ki, hər bir qərarın arxasında müəyyən səbəblər zənciri mövcuddur:

- bir neçə saniyə əvvəlki beyin impulsları,
- bir neçə saat əvvəlki hormonal vəziyyət,
- bir neçə il əvvəlki tərbiyə və sosial mühit,
- və milyonlarla il əvvəl formalaşmış evolyusion genetik kod (Sapolsky, 2017).

Digər tərəfdən, bəzi müasir filosoflar — məsələn, Daniel Dennett — azad iradənin tamamilə inkar edilməsini qəbul etmir və "kompatibilizm" mövqeyindən çıxış edirlər. Onların fikrincə, determinizm və azad iradə bir-birinə zidd deyil, əksinə, insan müəyyən səbəb-nəticə zəncirinin içində olsa da, seçim etmək və məsuliyyət daşımaq qabiliyyətinə malikdir (Dennett, 2003).

## Nəticə

XX əsrin sonu və XXI əsrin əvvəllərində azad iradə məsələsi hüquq və etikada da ciddi müzakirə mövzusu olmuşdur. Çünki əgər insan davranışları tamamilə determinizm əsasında baş verirsə, onda cəza və mükafatın mənası sual altına düşür. Müasir hüquq nəzəriyyələri isə məsuliyyət prinsipini qorumaq üçün insanın seçim qabiliyyətini müəyyən dərəcədə qəbul etməyi zəruri hesab edirlər. Bundan başqa, müasir ekzistensializm fəlsəfəsi (Jean-Paul Sartre, Albert Camus) azad iradəni insan varlığının əsas şərti kimi qiymətləndirir (Sartre, 1943). Sartre-ın fikrincə, insan "azadlığa məhkumdur" və bu azadlıq ona həm böyük imkanlar, həm də ağır məsuliyyət yükləyir (Schopen-hauer, 1969, p. 482).

Beləliklə, müasir dövrdə azad iradə və determinizm məsələsi yalnız fəlsəfi deyil, həm də elmi, hüquqi və etik aspektlərdə araşdırılır. Bu da göstərir ki, mövzu insan həyatının bütün sahələrinə təsir edən fundamental bir problemdir.

## Ədəbiyyat

1. Aristotle. (1999). *Nicomachean ethics* (W. D. Ross, Trans.). Batoche Books.
2. Copleston, F. (1993). *A history of philosophy: Greece and Rome*. Image Books.
3. Dennett, D. C. (2003). *Freedom evolves*. Penguin Books.
4. Epicurus. (1994). *Letter to Menoeceus*. In B. Inwood & L. P. Gerson (Eds.), *The Epicurus reader*. Hackett.
5. Epictetus. (1983). *Enchiridion*. Prometheus Books.
6. Fakhry, M. (2002). *A history of Islamic philosophy* (3rd ed.). Columbia University Press.
7. Frank, R. M. (1992). Creation and the cosmic system: Al-Ghazali & Avicenna. *Journal of the History of Philosophy, 30*(3), 315–341.
8. Hobbes, T. (1996). *Leviathan*. Cambridge University Press.
9. James, W. (1884). The dilemma of determinism. In *The will to believe and other essays in popular philosophy*. Longmans, Green, and Co.
10. Laplace, P. S. (1902). *A philosophical essay on probabilities*. J. Wiley & Sons.
11. Libet, B. (2004). *Mind time: The temporal factor in consciousness*. Harvard University Press.
12. Nasr, S. H. (2007). *Islamic philosophy from its origin to the present: Philosophy in the land of prophecy*. State University of New York Press.
13. Plato. (2000). *Republic* (B. Jowett, Trans.). Dover Publications.
14. Rahula, W. (1974). *What the Buddha taught*. Grove Press.
15. Radhakrishnan, S. (1927). *Indian philosophy* (Vol. 1). Oxford University Press.
16. Sapolsky, R. M. (2017). *Behave: The biology of humans at our best and worst*. Penguin Press.
17. Sartre, J.-P. (1943). *Being and nothingness*. Gallimard.
18. Schopenhauer, A. (1969). *The world as will and representation* (E. F. J. Payne, Trans.). Dover Publications.
19. Spinoza, B. (1994). *Ethics*. Penguin Classics.
20. Watt, W. M. (1948). *Free will and predestination in early Islam*. Luzac & Co.
21. Zaehner, R. C. (1961). *The dawn and twilight of Zoroastrianism*. Weidenfeld & Nicolson.

Daxil oldu: 09.06.2025
Qəbul edildi: 18.09.2025